*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 132-137*
https://doi.org/10.62837/2024.4.132

**SƏFIXANOVA AFƏT,**
**ALCANOVA AYGÜN,**
**QULAMOVA ELVİNA**
*Azərbaycan Tibb Universiteti, Səməd Vurğun küç. Bakı, Azərbaycan*
sefixanovaafet@gmail.com
alcanova1512@gmail.com
equlamova@amu.edu.az

# İNGİLİS DİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİNİN LEKSİK-LİNQVSTİK TƏHLİLİ

**Açar sözlər**: leksika, semantik, budaq cümlələr, dilçilik
**Key words:** lexicology, semantic, dependent clauses, linguistics
**Ключевые слова**: лексикология, семантика, придаточные предложения, лингвистика

Müxtəlif sistemli dillər kimi ingilis və Azərbaycan dillərinin sintaktikində araşdırılması gərəkli hesab edilən problemlərdən biri də budaq cümlə məsələsidir. İngilis və Azərbaycan dillərində təyin budaq cümlələrinin struktur və funksional-semantik planda öyrənilməsinə əsaslanır. Təyin budaq cümlələri qarşılaşdırılan dillərdə polipredikativ cümlə konstruksiyalarının ümumi sistemində əsas yerlərdən birini tutur. İngilis dilində təyin budaq cümlələri hər hansı bir şəxsi və ya yeri təyin etmək funksiyasını yerinə yetirir. Müasir dövrdə təyin budaq cümlələri kimi polipredikativ konstruksiyalar istər tipoloji baxımdan istərsə də ayrı-ayrı dilərin sintaktikasının nəzəri məsələlərinin öyrənilməsi nöqteyi-nəzərində böyük maraq kəsb edir. Belə ki, bu konstruksiyalar müxtəlif dillərdə müxtəlif funksiyalarda işlənir. Müxtəlif dillərdə müxtəlif semantik və sintaktika quruluşa malik olurlar.

Tabeli mürəkkəb cümlənin növlərindən biri olan təyin budaq cümləsi (the attributive subordinate clause/relative clause) həm ingilis, həm də Azərbaycan dilində bir cümlədə hər hansı bir şəxsi və ya əşyanı bildirən isim və əvəzliklə ifadə olunur. Həmçinin isim və ya əvəzliklə ifadə olunmuş cümlənin təyini rolunda çıxış edir. Bu baxımdan ingilis dilində təyin budaq cümləsi baş cümlənin, tamamlıq, mübtəda, ismi xəbərini izah edir. Lakin, zərfliyi isə konkretləşdirir. Azərbaycan dilində isə baş cümlədə hər hansı bir şəxsi və ya əşyanı bildirən isim və əvəzliyi ifadə edir. Təyin budaq cümləsi baş cümlənin isimlə və ya isimləşmiş sözlərlə ifadə olunmuş hər hansı bir üzvünü təyin edir və təyinin suallarına (how, what kind of, which) cavab verir. Adətən təyin budaq cümlələrində əvəzlik qəliblər işlənir.

Təyin budaq cümlələri həm ingilis, həm də Azərbaycan dilində baş və budaq cülələr arasındakı təyini bağlayıcıları, təyini əlaqələri göstərir. Dilçilik elminin bütün bölmələri üzrə kompleks şəkildə aparılan təhlil linqvistik təhlil adlanır. Linqvistikada nitq hissələri və onların dəyişilmə qaydalarını öyrənir. Tabeli mürəkkəb cümlələr budaq cümlələrinin növünə görə fərqlənir. Təyin budaq cümləsi baş cümlədə isimlə

yaxud əvəzliklə ifadə olunmuş hər hansı bir üzvə aid olur, onu təyin edir. Təyin budaq cümlələr baş cümləyə nisbi əvəzliklərlə və nisbi zərflərlə bağlanır. Təyin budaq cümlələr iki cür olur, məhdudlaşdırıcı təyin budaq cümlələr və yəsviredici təyin budaq cümlələr. Məhdudlaşdırıcı təyin budaq cümləsi ilə baş cümlə arasında bir qayda olaraq vergül qoyulmur.Təsviredici təyin budaq cümləsi ilə baş cümlə arasında, bir qayda olaraq vergül qoyulur. Təsviredici təyin budaq cümlələri təyin olunan söz haqqında əlavə informasiya verir. Təsviredici təyin budaq cümlələri baş cümlədən vergüllə ayrılır. Təyin budaq cümləsinin tabeli mürəkkəb cümlədə yeri, mövqeyi haqqında bir neçə bəzi fikir söyləmək lazımdır. Bir çox hallarda təyin budaq cümləsi təyin edilən sözdən sonra durur. Artıq bəzən elə hallar olur ki, tərkibində isim olmayan bir neçə söz və söz birləşmələrindən sonra da gələ bilər. Təyin budaq cümləsini təqdim edən nisbi əvəzlikdir (whom, whose, which, that, as) məhdudlaşdırıcı təyin budaq cümlələrini baş cümləyə bağlayır. Təyin budaq cümlələrində "who" əvəzliyinin obyekt halı olan "whom" və "which" əvəzliklərini çox vaxt "that" əvəzliyi əvəz edir. *A letter that (which) is written is difficult to read.* [1.səh 5-7]

İngilis dilində "oppositive, attiributive clauses" adlanan budaq cümlələr də var ki, onlar baş cümlədə olan hər hansı bir ismin əlavəsi kimi işlənir. Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə, yəni *idea, chance, method, way, statement, fact* və s. sözlərlə ifadə olunur. Bu zaman budaq cümlə baş cümləyə bağlayıcılarla bağlanır və heç zaman cümlədən atıla bilməz. *A week later Dorian Gray was at his house in the country, where he had invited Lord Henry and several other friends. (Bir həftə sonra Dorian Qrey Lord Henrini və bir neçə dostunu evə dəvət etdi.)*

Təyin budaq cümləəri, iki cümləni birləşdirərək dilin ahəngliyi üçün istifadə olunur. *A woman opened the door. She was wearing a white dress.* Bu iki cümləni birləşdirərək işlətsək who və ya which istifadə edərək iki cümləni bir-birinə bağlamamız lazım gəlir. Vacib olan qayda budur, ikinci cümlə hər zaman ilk cümlədəki bir sözlə əlaqəli məlumat verməkdədir. Whose, that, who bağlayıcıları işlənən cümlələr ingilis və Azərbaycan dilində müəyyən qaydalara tabe olur. Bu dillərdə işlənən cümlələrdə təyin funksiyalarına nəzər salaq. *One matter whose answer is unknown is interesting for us- Bir məsələ bizi maraqlandırır ki, cavab yoxdur. This is the answer that jury are completely satisfied with- Bu elə cavabdır ki, münsiflər heyyəti tam razıdır. I would like to read the book which is recommnended by my teacher- Mən müəllimin mənə tövsiyyə edən kitabı oxumaq istərdim. They live in the village where ancient historical monuments have been preserved up to the modern period- Onlar abidələri müasir dövrə kimi qorunan kənddə yaşayırlar.* Təyin budaq cümləəri biz bilirik ki, iki ayrı –ayrı cümlələrdən təşkil olunmuşdur. Bu cümlələr də bağlayıcılar vasitəsilə bağlanaraq bir mənanı ifadə edir. *I found the book. The book was important. I found the book which was important. That was the time when thousands of workers in the area were streaming at of the plants-Bu ərazidə minlərlə işçinin zavodlara axışdığı vaxt idi. I don't like the method how he explained the matter. But he could see now no reason why he should not smoke- Mən onun məsələni izah etdiyi metodu xoşlamıram. Ancaq o nəyə görə siqaret çəkməyəcəyinin*

*səbəbini bilmirdi.* Məsələn, *the fact he was not said anything surprises everybody- Ona heç nə deyilməməsi faktl hamını təəccübləndirir.* Beləliklə, tamamilə aydındır ki, nisbi əvəzliklər təyin budaq cümlələrini baş cümləyə bağlamaq üçün işlənir və bağlayıcılardan olunan təyin budaq cümləsində fərqlənir ki, onlar həm də bir cümlə üzvü kimi çıxış edə bilirlər.

Əvəzliklərin işlənməsində bağlayıcıların mühim rolunu qeyd etmək vacib şərtlərdən biridir. Who, whom, whose, which sual əvəzlikləri orta əsrlər ingilis dilində nisbi əvəzlikləri kimi işlənmişdir. Erkən orta əsrlər ingilis dilində that geniş işlənmişdir, lakin indi wh-əvəzliklərinin, xüsusilə, canlılara aid olan who əvəzliklərinin işlənməsinə geniş meyil var. Cümlə bəzən kişi və qadın cinsinə aid olduqda who əvəzliyi işlənir. Lakin bu qayda bəzən pozulur və biz tez-tez which əvəzliyinin kişi və ya qadın cinsi ilə, who əvəzliyinin isə orta cinslə əlaqələndiyini görə bilirik. Ölkə adları, coğrafi nöqteyi-nəzərdən göründükdə which əvəzliyi, siyasi anlayış kimi götürdükdə isə who əvəzliyi işlənir. Lakin bununla belə həmin məsələdə həddindən artıq tərəddüdlər var. Məsələn, *for travelling I prefer Norway which is more mountainous than Sweden- Səyahət üçün İsveçdən daha daqlıq əraziyə malik olan Norveçi üstün tuturam.* [2.səh 31-34] Əgər kollektiv isim bütöv bir toplantını bildirirsə which əvəzliyini (feil təkdə), ayrı-ayrı şəxsləri nəzərdə tutursa who əvəzliyi işlətmək mümkündür. Bu zaman feil cəmdə işlənir. Məsələn, *The comission, which consisted of ten members was unanimous in its decision- On üzvdən ibarət olan komissiya öz qərarında yekdil idi. The crew who were all asleep forgot to host a lantern-Yatmış dəstə üzvləri fənər yandırmağı unutmuşdular.*

Poeziyada əşyaları təcəssüm etdirmək üçün who əvəzliyindən istifadə edilir. Əgər təyin olunan söz, peşə, şəxsiyyət ifadə edən ismi xəbərdirsə o zaman which və ya that işlənir. Təyin etdiyi söz kimi which əvəzliyinin sifəti də predikatı və ya bütöv bir söz cümləsi olan which və ya that işlənir. Təyin etdiyi söz cümlələrdə mühim rol oynayır. Belə olan halda baş cümləyə which ilə bağlanan budaq cümlələr həmişə təsvir edici olur. Məsələn, *He is not the man which you think him to be- O sizin düşündüyünüz kimi deyil.* Təyin etdiyi söz kimi which əvəzliyinin də sifət-predikativ və ya bütöv bir cümləsi ola bilər. Belə olan halda which baş cümləyə bağlanan budaq cümləni təsvir edicisi olur. [3.səh 18-19]

Orta əsrlər ingilis dilində və erkən müasir ingilis dilində that həmişə nisbi əvəzlik kimi işlənmişdir. İndi that təsvir edici təyin budaq cümlələrində nadir hallada yalnız əşyanı məhdudlaşdırıcı təyin budaq cümlələrində belə, who əvəzliyinin işlədilməsinə güclü, that əvəzliyinin yalnız əşyalara uyğun olaraq işlədilməsinə nisbətən az meyil var. Lakin that nisbi əvəzliyinin insanlara və əşyalara aid olaraq səbrbəst işləndiyi bəzi nümunələri vardır. Təyin budaq ümləsində that tez-tez işlənir. Təyin budaq cümlələri nisbi zərflərdən sonra işlənir. Nisbi əvəzliklərdən başqa nisbi zərflər də təyin budaq cümləsini baş cümləyə bağlaya bilər. Təsviredici təyin budaq cümlələrində when, where, why, how zərfləri işlənməsə də, onlar cümlədə nəzərdə tutulur. Təyin budaq cümlələri tabelilik bildirən that, if, where, whether, as if, as though bağlayıcıları ilə bağlana bilər. That bağlayıcısı təyin budaq cümləsini təqdim edəndə təyin olunan söz mücərrəd isimlərdə istifadə olunur. Məsələn, idea-thought,

feeling-impression və s. Məsələn, *Her calm heart couldn't bear the thought that Ann was lying there so cold- Onun sakit ürəyi Annanın buz kimi orada uzanmasına dözə bilmədi.*

Baş cümlədə təyin olunan söz əlavə kimi işlənən təyin budaq cümlələri as if, as though ilə də bağlana bilər və cümlədən atıla bilməz. Belə cümlələr bağlayıcılarla yanaşı, bağlayıcı sözlərlə də bağlana bilər. Belə cümlələr vergüllə ayrılmır və bağlayıcı element olmadan işlənmir. Qeyd etdiyimiz kimi, təyin budaq cümlələri yanaşı gəlir. Who, which, that əvəziklərinin təyin budaq cümlələrində işlənməsi əvəzliklərində bir sıra qaydalara əməl etmək lazımdır. Hansı əvəzliklərin geniş mənada işlənməsi, hansıların canlılara və hansıların cansızlara aid olmasına diqqət yetirmək lazımdır.

## Ədəbiyyat

1. Barabash. T.A "A Guide To Better Grammar" Moscow,1975
2. Əliyeva Ə. " Tabeli Mürəkkəb cümlələr və onların xüsusiyyətləri" Bakı, 1992
3. Musayev O. " İngilis dilinin qrammatikası" Bakı, 1986
4. О. Осиянова, М. Романюк " English Lexicology" 2006

## Deterministic clauses in English and their lexical semantic analysis

**Saphikhanova Afet,**
**Aljanova Aygun,**
**Gulamova Elvina**

**Summary**

This article is about relative clauses that determines the sentences. This is a clause that generally modifies a noun or a noun phrase and is often introduced by a relative pronoun "which, that, who, whom, whose". A relative clause connects ideas by using pronouns that relate to something previously mentioned and allows us to combine two independent clauses into one sentence. A relative clause is also known as an adjective clause. There are two types of relative clauses: restrictive and non-restrictive. Relative clauses give us information that tells us who or what we are talking about. We usually use a relative pronoun or adverb to start a definite clause "who, that, which, where or whose". We can use who or that about people that is more common and a bit more informal. And sometimes we leave out the relative pronoun. We can usually leave out "who, which or that" if it is followed by a subject. A restrictive clause restricts or defines the meaning of a noun or noun phrase provides necessary information about a sentence. And restrictive clauses are more common in writing than non-restrictive clauses.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 132-137*

# İNGILIS DILINDƏ TƏYIN BUDAQ CÜMLƏLƏRININ LEKSIK-LINQVSTIK TƏHLILI

**SƏFIXANOVA AFƏT,**
**ALCANOVA AYGÜN,**
**QULAMOVA ELVINA**

## Xülasə

Bu məqalə cümlələri təyin edən nisbi cümlələr haqqındadır. Bu, ümumiyyətlə bir isim və ya isim ifadəsini dəyişdirən və tez-tez nisbi əvəzlik “which, that, who, whom, whose” tərəfindən təqdim olunan bir bənddir. Nisbi cümlə əvvəllər qeyd olunan bir şeyə aid əvəzliklərdən istifadə edərək fikirləri birləşdirir və iki müstəqil bəndi bir cümlədə birləşdirməyə imkan verir. Nisbi cümlə həm də sifət cümləsi kimi tanınır. Nisbi müddəaların iki növü var: məhdudlaşdırıcı və məhdudlaşdırıcı olmayan. Nisbi cümlələr bizə kimdən və ya nədən danışdığımızı bildirən məlumatı verir. Biz adətən “who, that, which, where or whose” müəyyən cümləsini başlamaq üçün nisbi əvəzlik və ya zərfdən istifadə edirik. İnsanlar haqqında daha çox yayılmış və bir az daha qeyri-rəsmi olanı istifadə edə bilərik. Və bəzən nisbi əvəzliyi buraxırıq. Əgər onun ardınca bir mövzu gəlirsə, adətən “who, which və ya that” tərk edə bilərik. Məhdudlaşdırıcı bənd isim və ya isim ifadəsinin mənasını məhdudlaşdırır və ya müəyyən edir, cümlə haqqında lazımi məlumat verir. Və məhdudlaşdırıcı müddəalar qeyri-məhdud müddəalardan daha çox yazılı şəkildə olur.

# ДЕТЕРМИНИРОВАННЫЕ ПРЕДЛОЖЕНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ И ИХ ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЙ АНАЛИЗ.

**САФИХАНОВА АФЕТ,**
**АЛДЖАНОВА АЙГЮН,**
**ГУЛАМОВА ЭЛЬВИНА**

## РЕЗЮМЕ

Эта статья о придаточных предложениях, определяющих предложения. Это предложение, которое обычно изменяет существительное или именное словосочетание и часто вводится относительным местоимением “which, that, who, whom, whose”. Относительное предложение соединяет идеи с помощью местоимений, которые относятся к чему-то ранее упомянутому, и позволяет нам объединить два независимых предложения в одно предложение. Относительное предложение также известно как прилагательное. Существует два типа придаточных предложений: ограничительные и неограничительные. Придаточные предложения дают нам информацию, которая говорит нам, о ком или о чем мы говорим. Обычно мы используем относительное местоимение или наречие, чтобы начать определенное предложение “who, that, which, where or whose”. Мы можем использовать who или that в отношении людей, что является более обычным и немного более неформальным. И иногда мы опускаем относительное местоимение. Обычно мы можем опустить слова

"who, which və ya that", если за ним следует подлежащее. Ограничительное предложение ограничивает или определяет значение существительного или именной группы, предоставляющей необходимую информацию о предложении. Ограничительные положения чаще встречаются в письменной форме, чем неограничительные.

**Redaksiyaya daxil olma tarixi: 10.04.2024**
**Çapa qəbul olunma tarixi: 24.04.2024**
**Rəyçi:Prof.Z.Ş.Məmmədova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**